*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.59-63*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.59-63*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.59-63*

**UOT: 373.3:37.03:574**
https://doi.org/10.30546/670832.2025.01.1095

# İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması yolları

**Müəllif(lər):**

**İranə Qurbanova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** iranebesirzade592@gmail.com

**Açar sözlər:** təlim, şagird, ekoloji mədəniyyət, ekoloji tərbiyə, ekoloji oyun

**Annotasiya.** Məqalədə işin aktuallığında ekoloji problemlərin çoxalması, qloballaşması, müharibələrin baş verməsi, havaya buraxılan zərərli qazların mövcudluğu və s. amillərin ekoloji tarazlığın pozulması ilə nəticələnməsi göstərilmiş, bunun qarşısını almaq üçün, kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin təşkilinə xüsusi diqqətin artırılması kimi məsələlərə toxunulmuşdur. Bu ekoloji problemlərin qarşısını almaq üçün ekoloji mədəniyyəti kiçik yaşda olan şagirdlərdə aşılamaq önəmli istiqamətlərdən sayılır. Yetişən gənc nəsilə verilən ekoloji tərbiyə mühafizəkar təbiət yaratmaq deməkdir. Bu tədqiqatda ibtidai siniflərdə ekoloji mədəniyyətin formalaşdırılması yollarını müəyyənləşdirmək məqsədilə əsasən nəzəri və empirik yanaşmalardan istifadə olunmuşdur. Ekoloji mədəniyyətin inkişafını ibtidai sinifdə təlim-tərbiyə prosesində aşılayaraq şagirdlərə təbiətlə bağlı söhbətlər etmək, diskussiyalar aparmaq, ekskursiyalar təşkil etmək, ekoloji oyunlar təşkil etmək mühüm məsələlərdəndir. Həmçinin, ibtidai sinifdə “Həyat bilgisi”, “Azərbaycan dili” dərsliklərində olan təbiətə qayğıkeş münasibəti aşılayan mövzuların ekoloji tərbiyənin formalaşması və inkişafında mühüm rola malik olduğu vurğulanmışdır.

**Author(s):**

**Irana Gurbanova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** iranebesirzade592@gmail.com

**Key words:** teaching, student, ecological culture, ecological upbringing, ecological game

## Ways of forming ecological culture in the process of teaching subjects in primary classes

**Abstract.** In the article it was stated that, increase of ecological problems, globalization, happened wars, release of noxious gases into the atmosphere and other factors cause to the disorder of ecological balance and for overcoming this the issues of focusing on organizing ecological upbringing of young schoolchildren were noted. İnorder to overcome these ecological problems the apply of ecological culture to younger pupils is considered one of the important directions. Providing ecological upbringing to the growing generation means fostering a conservative approach to nature. For the purpose defining formation ways of ecological culture in primary classes theoretical and empirical approaches were used. Applying the development of ecelogical upbringing in primary classes in the teaching-upbringing process and engaging students in discussions about nature, organizing excursions, conducting discussions and organizing ecological games are of great importance. Additionally, topics in primary school textbooks such as “Nature science” and “Azerbaijani language” that encourage careful attitude toward nature are of great importance in the formation and development of ecological upbringing.

**Автор(ы):**

**Ирана Гурбанова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** iranebesirzade592@gmail.com

**Ключевые слова:** обучение, ученик, экологическая культура, экологическое воспитание, экологическая игра

## Пути формирования экологической культуры в процессе преподавания предметов в начальных классах

**Аннотация.** В статье указывается на актуальность работы по таким вопросам, как воспроизводство экологических проблем, глобализация, возникновение войн, наличие вредных газов, выбрасываемых в воздух, и другие факторы, приводящие к нарушению экологического баланса, во избежание чего повышается особое внимание к организации экологического воспитания младших школьников. Чтобы избежать этих экологических проблем, важным направлением считается привитие экологической культуры учащимся младшего школьного возраста. Экологическое воспитание, данное подрастающему молодому поколению, означает создание консервативной природы. В данном исследовании были использованы в основном теоретический и эмпирический подходы с целью определения путей формирования экологической культуры в начальных классах. Прививая развитие экологической культуры в учебно-воспитательном процессе в начальной школе, учащимся важно вести беседы о природе, вести дискуссии, организовывать экскурсии, экологические игры. Также было подчеркнуто, что темы, воспитывающие бережное отношение к природе, содержащиеся в учебниках «Познание мира», «Азербайджанский язык» в начальных классах, играют важную роль в формировании и развитии экологического воспитания.

**Giriş.** Müasir dünyada ekoloji problemlərin artması ekoloji mədəniyyətin formalaşdırılmasını mühüm vəzifələrdən birinə çevirir. İnsanların ətraf mühitə münasibəti erkən yaşlardan formalaşdığı üçün ibtidai təhsil dövrü bu prosesdə xüsusi əhəmiyyət kəsb edir. Məktəbdə tədris olunan müxtəlif fənlər vasitəsilə şagirdlərdə təbiətə qayğıkeş münasibət, ekoloji dəyərlər və ekoloji davranış vərdişləri aşılanır.

Bu araşdırmada ibtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılmasının əsas yolları, metodları və əhəmiyyəti araşdırılmışdır. Eyni zamanda, inteqrativ yanaşmanın və interaktiv tədris üsullarının bu istiqamətdə rolu vurğulanmışdır. Tədqiqatın aparılmasında əsas məqsəd ekoloji maarifləndirmənin kiçikyaşlı məktəblilərin dünyagörüşünə və davranışlarına necə təsir etdiyini müəyyən etməkdən ibarətdir.

Təbii resursların səmərəli şəkildə istifadəsi nəticəsində ətraf aləmin çirklənməsinin qarşısının alınması  əsas məqsəd və qlobal problem kimi qarşıya qoyulmuş məsələdir.

Bu kimi məsələlərə duyarlı olmaq üçün isə dünyada bir çox ekoloji problemlərin həllinə yönəlmiş tədbirlərdə ölkəmizin iştirakı görülməkdədir.  Bunlardan ən nüfuzlusu olan COP29-un bu il Azərbaycanda keçirilməsi nümunə göstərilə bilər. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə  2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili”  elan edilib. Bu istiqamətdə görülən işlərdən biri olaraq yaşıl enerji növlərinin yaradılması əsas prioritet hesab edilir. Həmçinin, qarşıya qoyulan əsas məsələlərdən biri də insanların iqlim dəyişikliyinin səbəbləri, nəticələri, həll yolları barədə maariflənməsidir. Təbii ki, bu proses erkən yaşlardan başlanılmalıdır. Təlim prosesi isə daha məqsədyönlü şəkildə təşkil olunarsa müsbət nəticələr əldə etmək olar.

Ekoloji biliklər müddəasına uyğun olaraq insan və təbiət arasında qarşılıqlı harmoniyaya əsaslanan bilikləri inkişafda olan gənc nəslə mənimsətmək vacib məsələdir. Ekoloji mədəniyyətin bünövrəsini,  təbiəti qorumaq və onu sevmək təşkil edir. İnsan təbiətin üzvü sayılır, təbiət də onu yaşadır, zəruri ehtiyaclarını qarşılayır. Ekoloji tərbiyəyə kiçik yaşlardan başlamaqla, uşaqlara təbiəti sevdirmək, canlılara qarşı mərhəmət hissini formalaşdırmaq lazımdır. Bununla lap erkən yaşlarda uşaqlarda ekologiyaya sevgi yaranır, ekoloji mədəniyyətin bünövrəsi qoyulur.

Ekoloji mədəniyyət ölkənin ekoloji təhlükəsizliyinə, insanın ətraf mühitlə əlaqəsinə dair elmi biliklərin məcmusudur. Ekoloji mədəniyyət yalnız təbiətə baxış sayılmır, həm də insan fəaliyyəti ilə bağlıdır. Şagirdlərin fəaliyyətində nəzəri, praktik biliklər arasındakı ziddiyətləri aradan qaldırmağa imkan verir. Kiçikyaşlı məktəblilərdə  təbiət, ətraf mühit amillərinə olan münasibəti “Həyat bilgisi”, “Azərbaycan dili” dərsliklərində rast gəlmək mümkündür. Bu mövzulara şagird toxunmaqla təbiətə, ekologiyaya münasibətini öyrənir, yeni məlumatlar əldə etməyə nail olur, insan həyatı və sağlamlığının qorunması ilə bağlı zəruri qaydaları öyrənmiş olur, humanistlik, mərhəmətlilik kimi ali hisslər aşılanır.

II sinif “Azərbaycan dili” dərsliyində “Təbiətin sirləri” adlı fəsil aşağıdakı paraqraflara bölünmüşdür: “Təbiət hadisələri”, “Heyvanlar aləmi”, “Bitkilər aləmi”. Bu paraqraflarda şagirdlər qar, dolu, yağış kimi təbiət hadisələrini fərqləndirir, qar və yağışın yağmasının su ehtiyyatını zənginləşdirdiyini  dərk edir, bitki və ağac örtüyünün inkişafına faydasını anlayırlar. Bu zaman müəllimin bələdçiliyi ilə şagirdlər rollu oyun vasitəsilə öyrəndiklərini nümayiş etdirə bilərlər. Bu zaman şagirdlər nəzəri biliklərlə yanaşı, praktik olaraq da öyrəndiklərini tətbiq edə bilərlər. Həmçinin, şeir nümunələrinin vasitəsilə ekoloji dünyagörüşün mənasını dərk edə bilərlər.

“Su olmasa quruyar,
Kollar, güllər, ağaclar.
Gün altında qovrulan,
Çiçəklənən ağaclar”

R.Yusifoğlu  [3, s.64].

Ekoloji tərbiyə bitki örtüyünün qorunması ilə yanaşı, heyvanlar aləminin də təbiət üçün önəmli olduğunu ortaya qoyur. Dərslikdə şagirdlər həm də, heyvanları yaşama, qidalanma tərzlərinə görə tanıyar və əhəmiyyətini  öyrənirlər.

“Ətyeyən yırtıcıdır,
Meşələrdə yaşayır.
Sinəsi ağ,gözləri
Şir gözünə oxşayır”

R.Rza [3, s.66].

Bitkilərin faydalı xüsusiyyətlərini öyrənirlər.

“Deyərlər:-Neçə dərdin
Dərmanıdır Qantəpər”

Z.Xəlil [3, s.76].

“Həyat bilgisi” dərsliyində isə II sinif üçün “Canlılar” adlanan bölmə ayrılmışdır ki, bu bölmə ekoloji tərbiyə və ətraf mühit məsələsinə həsr edilmişdir. “Ehtiyatlı davranaq” adlı bölmənin “Təbii fəlakətlər” adlı paraqrafında sel, zəlzələ, sürüşmə və s. kimi çətin durumlarda şagirdlərə hansı tədbirlər görmək, hansı addımlar atmaqla bağlı tövsiyələr verilir. Bundan əlavə, hava, su, Günəş işığının əhəmiyyətindən bəhs edilir [4, s.73; 87].

Dərsdənkənar işlərdə daha əhəmiyyət kəsb edən dərs prosesinin qurulması həssas və qayğıkeş mühitin formalaşmasına təsir edir. Şagirdlərə ekoloji tərbiyə, ekoloji mədəniyyət sahəsində biliklər vermək təbii ki, ibtidai sinif müəlliminin üzərinə düşür. Səriştəli müəllim dərsliklərdə olan məlumatı daha interaktiv, yeni texnologiya əsaslı təqdim etməlidir. Bunun üçün müəllim havanın təmizlənməsi baxımından sinifdə dibçəklərdə gül qoya bilər, öyrətmə məqsədi ilə şagirdlərdən növbə ilə güllərə qulluq etməsini (su verməlerini, tökülən yarpaqları yığmalarını və s.) istəyə bilər. Bu ekoloji tərbiyə şagirdlərə müsbət təsir edəcəkdir, həm də bitkilərin faydasını öyrənmiş olacaqlar. Yaxud, məktəbin həyətində ağac əkərək müəllim bütün şagirdləri kiçik də olsa həmin prosesdə iştirak etməyə cəlb edə bilər.

Şagirdlərin çox sevdiyi dənizə tullantılar atmağın ekologiyamıza vurduğu zərbədən danışmaq, əyani olaraq göstərmək daha effektli üsul ola bilər. Həmin çirkli suların sağlamlığımızda hansı təhlükələr yarada biləcəyini izah etməklə müəllim qarşıya qoyduğu məqsədə çata bilər. Kənd yerlərində yaşayan insanların faydalı ağacları, xüsusən, nəsli bitməkdə olan ağacları kəsərək yandırmalarından, ovlanması qadağan olunan heyvanların ov məqsədi ilə vurulmasının təbiətə vurduğu ziyandan danışmaq olar. Onu da qeyd etmək lazımdır ki, dövlətimiz də ekologiyamızı qorumaq məqsədi ilə nəzarət sektorları yaratmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində yaradılan qurumlar var ki, qanunsuz ağac kəsimlərinə, qadağan olunmuş heyvanların ovlanmasına nəzarət edir. Bu qaydaları pozan şəxslər cəzalandırılır.

Maariflənmə işinin əsas addımlarından biri ekoloji oyunların təşkil edilməsidir. Ekoloji oyunların keçirilməsi gənc nəslin tərbiyə edilməsində effektini göstərən amillər sırasındadır. “Ekoloji oyunlar yeddi növə ayrılır:

1.Kommunikativ ekoloji oyunlar
2.Maarifləndirici ekoloji oyunlar
3.Hissiyyatlı ekoloji oyunlar
4.Emosional mühitdə inkişaf etdirilən oyunlar
5.Əyani vəsaitlərdən təşkil olunmuş oyunlar
6.Psixoloji mətnlərdən istifadə etməklə olan oyunlar
7.Ssenarili oyunlardan istifadə etməklə olan oyunlar” [1, s.65].

Ekoloji oyun oynayan zaman şagirdlər praktik bacarıqlara yiyələnmiş olurlar. “Siçan və pişik”, “Xoruz döyüşü”, “Heyvanların bəhsi” və krossvord tipli oyunları misal göstərə bilərik [5].

Beləliklə, şagirdlərdə erkən yaşlarda təbiətə qayğı hissinin formalaşdırılması əsasdır. Sinif şagirdlərinin maariflənməsinin, ekologiyamızın qorunmasının vacibliyini nəzərə alaraq diskussiyalar, tədbirlər, dəyirmi masalar təşkil olunmalı, onlara öyüd, nəsihət və tövsiyələr verilməlidir. Ekoloji cəhətdən duyarlı, formalaşan insanlar yetişdirmək məqsədilə təlim prosesində dərsliklərdə olan mövzulardan geniş şəkildə yararlanmaq müsbət nəticələrə gətirib çıxara bilər. Bunun üçün oyunlardan istifadə, müəllimlərin bu oyunları şagirdlərin fərdi xüsusiyyətlərinə görə qurması əsas məsələlərdəndir. Həmçinin, kütləvi informasiya vasitələrində kiçikyaşlı məktəbliləri nəzərə alaraq ekoloji mədəniyyəti formalaşdıran ekoloji tərbiyə xarakterli məqalələrin yazılması, verilişlərin yayımlanması bu istiqamətdə aparılan işlərə böyük töhfə verə bilər [2, s.21-22].

**İşin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat materialları və alınan nəticələrdən ibtidai siniflərdə və pedaqogika kursunun müvafiq mövzularının öyrənilməsində istifadə edilə bilər. Kiçik məktəbyaşlı şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılmasının pedaqoji şərtlərinin müəyyənləşməsi, onlardan təlim-tərbiyə prosesində istifadə edilməsi tərbiyə nəzəriyyəsinin zənginləşməsinə səbəb ola bilər.

**Material və metodlar.** Bu tədqiqatda ibti-

dai siniflərdə ekoloji mədəniyyətin formalaşdırılması yollarını müəyyənləşdirmək məqsədilə əsasən nəzəri və empirik yanaşmalardan istifadə olunmuşdur. Nəzəri əsas kimi ekoloji tərbiyə, ekoloji mədəniyyət, ibtidai təhsildə fənlərin rolu və interaktiv təlim metodlarına dair elmi ədəbiyyat təhlil edilmiş, Azərbaycan Respublikasının qanunvericilik sənədləri həmçinin ekoloji tədbirlərlə bağlı dövlət proqramları əsas götürülmüşdür.

Empirik mərhələdə isə tədris prosesində istifadə olunan dərsliklərin – xüsusilə "Azərbaycan dili" və "Həyat bilgisi" fənlərinin – ekoloji məzmunlu bölmələri təhlil olunmuş, bu bölmələr vasitəsilə şagirdlərə verilən ekoloji mesajlar və öyrədici məzmunlar müəyyənləşdirilmişdir. Eyni zamanda müəllimlərin tətbiq etdiyi tədris metodları – müzakirələr, ekskursiyalar, rollu və ekoloji oyunlar kimi interaktiv yanaşmaların təsir effektivliyi qiymətləndirilmişdir.

Material kimi dərslik mətnləri, şeirlər, maarifləndirici oyun nümunələri, real təlim prosesindən müşahidələr və müəllim təcrübələri əsas götürülmüşdür. Bu yanaşma, şagirdlərin ekoloji davranış vərdişlərinin formalaşma səviyyəsini təhlil etmək və praktik nəticələrə əsaslanaraq tövsiyələr vermək imkanı yaratmışdır.

**Nəticə və müzakirələr.** İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması şagirdlərin təbiətə olan münasibətini və ekoloji biliklərini inkişaf etdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Ekoloji mədəniyyətin erkən yaşlardan aşılanması uşaqlarda təbiətə qarşı qayğıkeşlik, ekoloji məsuliyyət və davamlı inkişaf prinsiplərinə uyğun davranış formalaşdırmağa kömək edir.

Araşdırma göstərir ki, tədris prosesində ekoloji mövzuların müxtəlif fənlərə inteqrasiya edilməsi, interaktiv təlim metodlarından istifadə olunması və təcrübəyə əsaslanan ekoloji tədrisin təşkili ekoloji şüurun inkişafına müsbət təsir göstərir. Riyaziyyat, ana dili, həyat bilgisi, təbiət və digər fənlər vasitəsilə uşaqlara ətraf mühitin qorunması ilə bağlı biliklərin verilməsi onların dünyagörüşünün formalaşmasına kömək edir.

Sevinc Vəliyevanın "Kiçikyaşlı məktəblilərin təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması yolları" adlı elmi işində ibtidai siniflərdə ekoloji davranış, təbiətə qarşı məsuliyyətlilik və empatik münasibətlərin formalaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Müəllifin yanaşmasına əsasən, uşaqlara praktiki və təbiətə qarşı təsirlilik yalnız biliklərlə deyil, emosional yanaşmalarla da saxlanmalıdır. Bu maddələrin təsirləri ilə əlaqəli təmasda olması, aşkarlanma vasitələrinin inkişaf etdirilməsi və real həyatda tətbiqi istifadə edilən təcrübələrlə təchiz edilmiş təlim mühitinin yaradılması ilə mümkündür. O, kiçikyaşlı məktəblilərin psixoloji və yaş xüsusiyyətlərini yaxşılaşdıran əyləncəli oyunlar, rollu və ekoloji, təbiət mövzulu rəsm, şeir, hekayə yaratmaq, kollektiv tapşırıqlar və ekskursiyalar əsasında bu münasibətin dərinləşdirilməsi ilə əlaqədardır.

**Yekun nəticə.** Apardığımız tədqiqat təsdiq etdi ki, əgər müxtəlif istiqamətli pedaqoji şərtlərdən istifadə edilsə, davamlı şəkildə sistematik olaraq idraki və praktik fəaliyyət aparılsa, kiçik məktəbyaşlı şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılması prosesi daha səmərəli olar.

Gələcəyin insanı ətraf mühitlə harmoniyada yaşayan, ekoloji zərurət hüdudlarında hərəkət edən, fəaliyyət göstərən şəxsdir. Ekoloji mədəniyyət formalaşdırılması insanın onu əhatə edən mühitə mənsub olduğunu, bu mühitlə vəhdət təşkil etdiyini dərk etməsi deməkdir.

Bundan əlavə, məktəbdənkənar fəaliyyətlər, ekskursiyalar, ekoloji layihələr və təbiətlə birbaşa ünsiyyətin təmin edilməsi də ekoloji mədəniyyətin formalaşmasında vacib rol oynayır. Ekoloji problemlərin həllində şagirdlərin fəal iştirak etməsi onların məsuliyyət hissini artırır və ekoloji dəyərləri həyat tərzinə çevirməsinə şərait yaradır.

Nəticə etibarilə, ibtidai siniflərdə ekoloji tədrisin effektiv təşkili gələcək nəsillərin ekoloji baxımdan savadlı və məsuliyyətli vətəndaş kimi yetişməsinə şərait yaradır. Bu səbəbdən, tədris proqramlarında ekoloji maarifləndirməyə daha çox yer verilməsi və müəllimlərin bu sahədəki metodik biliklərinin artırılması vacibdir. Ekoloji mədəniyyətin erkən yaşlardan aşılanması yalnız fərdlərin deyil, bütövlükdə cəmiyyətin ekoloji rifahına töhfə verən mühüm addımdır.

**Ədəbiyyat**

1. Xəlilov, T. I–IV siniflərdə ekoloji mədəniyyət tərbiyəsinin aşılanması / T.Xəlilov, S.Məm-

mədova. – Naxçıvan: – 2022. – 76 s.
2. Azərbaycan dili: ümumi təhsil müəssisələrinin II sinfi üçün dərslik. – Bakı: Təhsil Nəşriyyatı, – 2021. – 160 s.
3. Həyat bilgisi: ümumi təhsil müəssisələrinin II sinfi üçün dərslik. – Bakı: Təhsil Nəşriyyatı, – 2024. – 120 s.
4. Vəliyeva, S.T. Kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibətlər formalaşdırılması yolları: pedaqoji elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı / – Naxçıvan: – 2022. – 24 s.
5. https://www.ecoalem.org/az/?p=445
6. "Ekoloji təhsil və maarifləndirmə Strategiyası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı № 180 – URL: https://e-qanun.az/framework/27970

*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 17.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 06.03.2025